# "Kənd təsərrüfatı ili"ndə aqrar sahədə möhtəşəm uğurlar qazanıldı



Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur.

Dövlətimizin daimi qayğısı və dəstəyi sayəsində ölkə iqtisadiyyatının mühüm bir sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı təmin edilmişdir. Bu inkişafın təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və onun Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə kənd təsərrüfatına xüsusi əhəmiyyətli bir sahə kimi baxılmışdır. Təsadüfi deyil ki, Ümummilli Liderin bu istiqamətdə gördüyü işlərin hər biri mühüm hadisə kimi respublikamızın dövlətçilik tarixində silinməz izlər qoymuşdur.

Ulu Öndərin strateji xəttini siyasi, iqtisadi, sosial və s. kimi bütün sahələrdə uğurla davam etdirən Respublika Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunmasını milli hədəflərdən biri kimi müəyyənləşdirmişdir. Möhtərəm Prezidentimizin bəyan etdiyi kimi, "hazırda qarşıda duran ən başlıca məqsəd daxili imkanlar hesabına kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminata və davamlı inkişafa nail olmaqla, Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdır". Ölkədəki mövcud potensial bu strategiyanın reallaşdırılmasına tam təminat verir.

Dövlət başçısının iradəsi və göstərişləri ilə həyata keçirilən elmi əsaslı institusional islahatlar, tətbiq edilən siyasi, iqtisadi, sosial texnologiyalar qeyd edilən hədəflərə xidmət etməklə öz bəhrəsini verməkdədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə davamlı olaraq həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən birini kənd təsərrüfatında yüksək inkişafa nail olunması, o cümlədən respublikada güclü aqrar-sənaye komplekslərinin yaradılması təşkil edir. Dövlət başçısı kənd təsərrüfatında artım tempinin təmin olunmasını və bu istiqamətdə müasir dövrün tələblərinə cavab verən səmərəli tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyevin cari il 12 yanvar tarixli müvafiq Sərəncamı ilə 2015-ci ilin Azərbaycanda "Kənd təsərrüfatı ili" elan olunması respublikamızda aqrar sektorun inkişaf etdirilməsinin dövlət siyasətinin mühüm istiqamətini təşkil etdiyini bir daha təsdiqləyir. Sərəncamda vurğulandığı kimi, respublikada həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılıb. Aqrar sektorda əsaslı dəyişikliklər baş verib, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşıb, normativ-hüquqi baza təkmilləşdirilib. İdarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməkdədir. Azərbaycanda 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan olunması isə kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək məqsədi daşıyırdı.

Ölkəmizdə son illərdə fermerlərə maliyyə dəstəyi gücləndirilib. Təkcə bu ilin ötən ayları ərzində 4400-dən çox sahibkara 166 milyon manat güzəştli kredit ayrılıb. Həmin kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 10 mindən çox yeni iş yerinin açılmasına imkan yaradıb.

Qeyd edilənlərlə yanaşı, 2009-2015-ci illərdə "Aqrolizinq" ASC vasitəsilə respublikaya 16 min başa qədər damazlıq qaramal gətirilərək istehsalçılara güzəştlə lizinqə verilib. Damazlıq heyvanların sayı artaraq 30 min başa çatıb. Ağcabədi, Xaçmaz, Samux, Ağdaş, Bərdə, İsmayıllı, Qəbələ və Füzulidə iri müasir heyvandarlıq kompleksləri yaradılıb. Hazırda bu iş Şamaxı, Xızı, Tovuz və digər rayonlarda da davam etdirilir.

Ağdaş, Göyçay, Qəbələ, İsmayıllı, Siyəzən və digər rayonlarda meyvə və üzüm emalı, şirə istehsalı müəssisələri fəaliyyətə başlayıb. "Samur-Abşeron" suvarma sisteminin yenidən qurulması, Taxtakörpü və Şəmkirçay su anbarlarının, Vəlvələçay-Taxtakörpü və Taxtakörpü-Ceyranbatan kanallarının və digər iri layihələr əkin dövriyyəsinə yeni torpaqlar cəlb etməyə müsbət təsir göstərib. Nazirlər Kabinetinin bu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində əldə edilən uğurlara toxunaraq bildirmişdir: "Bu il "Kənd təsərrüfatı ili" elan edilmişdir. Şadam ki, "Kənd təsərrüfatı ili"ndə kənd təsərrüfatımız da 6,7 faiz artıb. Ölkədə aparılan islahatlar, eyni zamanda, dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiyalar, texnika təminatı və bütövlükdə dövlət siyasəti, bax, bu vəziyyəti yaradır. İri fermer təsərrüfatlarının yaradılması da, xüsusilə, taxılçılıq sahəsində böyük dönüşə səbəb olub". Son illərdə müasir quşçuluq və heyvandarlıq komplekslərinin, intensiv bağçılıq və üzümçülük təsərrüfatlarının, logistik mərkəzlərin və taxıl anbarları kompleksinin yaradılması da aqrar sektorda canlanmaya, istehlak bazarının sabitləşməsinə, ixrac potensialının artmasına, idxaldan asılılığın azalmasına, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə səbəb olub. Fikrimizin təsdiqi kimi, diqqəti bir fakta yönəltmək istərdik. Ölkə Prezidentinin tapşırığına əsasən, 19 rayonda 40 min hektardan artıq sahədə 30 iri fermer təsərrüfatı yaradılıb, 40 min hektar yeni torpaq sahəsi dövriyyəyə buraxılıb. Cari mövsümdə həmin təsərrüfatlarda məhsuldarlıq hər hektardan 58-60 sentner təşkil edib.

Ölkəmizdə aqrar sahəyə diqqət və qayğının güclənməsi və kənd təsərrüfatı mülkiyyətçilərinə göstərilən güzəştli yardımların miqyasının artması bu sahədə inkişaf tempinə mühüm stimul verməkdədir. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində aqrar bölmədə istehsalın artırılması üçün ən mühüm layihələr həyata keçirilir. Bu gün ölkəmizdə əhalini zəruri qida məhsulları və kənd təsərrüfatı malları ilə təmin etmək üçün güclü potensial mövcuddur. Dünyada baş verən iqlim dəyişiklikləri və təbii fəlakətlərlə əlaqədar bir çox dövlətlərin ərzaq təhlükəsizliyində problemlərin yaranmasına baxmayaraq, Azərbaycanda əhalinin kənd təsərrüfatı məhsulları ilə etibarlı təminatı üçün bütün lazımi tədbirlər görülüb. Bir nömrəli ərzaq məhsulu olan taxıl yerli tələbatı ödəməyə imkan verəcək. Dövlət Taxıl Fonduna məxsus anbarlarda və taxılçılıq dəyirmanlarında yığılan ehtiyat taxıl hesabına bu məhsula olan tələbat tam ödəniləcək.

**Mənsumə Babayeva,**
***"İki sahil"***